Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-5307/2022 16.09.2022

**ALİ MƏHKƏMƏ**

**QƏRARDAD**

(Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi haqqında)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimləri Əliyev Zaur Əli oğlu (məruzəçi), Xələfov İlqar Rəhim oğlu və Hüseynov Abiddin Qabil oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1847/2022 nömrəli, 21 fevral 2022-ci il tarixli qətnaməsindən İddiaçı tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək,

**MÜƏYYƏN ETDİ:**

İddiaçı (nümayəndə və vəkil X1 tərəfindən tərtib edilmiş) Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1847/2022 nömrəli, 21 fevral 2022-ci il tarixli qətnaməsindən kassasiya şikayəti vermişdir.

Kollegiya aşağıdakılara əsasən hesab edir ki, şikayət qeyri-mümkün sayılmalıdır.

Belə ki, 01 oktyabr 2021-ci ildən qüvvəyə minmiş MPM-nin 10-1.3-cü maddəsinə görə, kommersiya mübahisələri üzrə məhkəmə icraatı, habelə “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması “Elektron məhkəmə” informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir.

Qeyd edilən normanın tələbindən göründüyü kimi elektron məhkəmə informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə şikayətlərin verilməsi “Elektron məhkəmə” informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilməli olduğu halda iddaçının vəkili tərəfindən qaydaya riayət olunmamış, şikayət elektron kabinet vasitəsilə verilməmişdir.

MPM-nin 404-1.1 və 404-1.2-ci maddələrinə görə, kassasiya instansiyası məhkəməsi iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində kassasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə kassasiya qaydasında baxmaq üçün prosessual əsasların olması daxildir. işə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadıqda kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə dair qərardad qəbul edilir.

Bundan başqa MPM-nin 408.1 və 408.1.7-ci maddələrinə görə, “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu apelyasiya məhkəmələrində bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında kassasiya şikayəti həmin maddənin tələblərinə uyğun verilmədikdə kassasiya şikayəti apelyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılır.

Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, kassasiya şikayəti qeyri-mümkün hesab edilməli, kassasiya şikayəti geri qaytarılması üçün mülki işlə birlikdə Bakı Apellyasiya Məhkəməsinə göndərilməlidir.

Göstərilənlərə əsasən və MPM-nin 404-1.1, 404-1.2, 407.1, 408.1, 408.1.1, 408.1.7-ci maddələrini rəhbər tutaraq

**QƏRARA ALDİ:**

İddiaçı Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-1847/2022 nömrəli iş üzrə 21 fevral 2022-ci il tarixli qətnaməsindən verdiyi kassasiya şikayəti qeyri-mümkün hesab edilsin.

Kassasiya şikayəti geri qaytarılması üçün mülki iş ilə birlikdə Bakı Apellyasiya Məhkəməsinə qaytarılsın.

**Sədrlik edən:** **Zaur Əliyev**

**Hakimlər:** **İlqar Xələfov**

**Abiddin Hüseynov**